AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 8/10

Bakı şəhəri 25 may 2016-cı il

“Azərbaycan Milli Ensiklopediyası”nın
veb-portalının yaradılması haqqında

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi əsasında “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi tərəfindən nəşrə hazırlanan Azərbaycan Milli Ensiklopediyasının çapdan çıxmış 1–5 cildləri (hər cild – 25 000 nüsxə, cəmi – 125 000 nüsxə), həmçinin 2008-ci ildə nəşr olunmuş “Azərbaycan” xüsusi cildi (25 000 nüsxə) respublikanın əksər müəssisə və təşkilatlarına paylanılmışdır.

Azərbaycan Milli Ensiklopediyası nəşrlərin daha geniş miqyasda tanıdılmasını, onlardan daha səmərəli istifadəni təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutuna tapşırılsın:
   1.1. “Azərbaycan Milli Ensiklopediyası”nın veb-portalı yaradılsın;
   1.2. “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi tərəfindən nəşr olunmuş ensiklopediyaların və ümummilli maraqlar baxımından əhəmiyyəti olan digər nəşrlərin veb-portalda yerləşdirilməsi təmin edilsin;
   1.3. Veb-portalın təhlükəsizliyinin təmin edilməsindən irəli gələn texniki məsələlər həll edilsin.
2. AMEA-nın vitse-prezidenti, akademik Tofiq Nağıyevə tapşırılsın ki, qərarın icrasından irəli gələn məsələlərin həlli təmin edilsin.

3. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinin rəisi, texnika üzrə fəlsəfə doktoru İlqar Quliyevə tapşırılsın ki, qərarın icrasından irəli gələn maliyyə məsələlərini həll etsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT